

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 180 (23.342)

*26 sentyabr 2019-cu il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Sentyabrın 25-də Bakı Nəqliyyat Agentliyinin “Koroğlu” Nəqliyyat Mübadilə Mərkəzinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

“Koroğlu” Nəqliyyat Mübadilə Mərkəzində yaradılan şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verilib.

Bildirilib ki, paytaxtın yollarında yeni səkilər salınıb, görmə əngəlli vətəndaşlar üçün şərait yaradılıb. Hökumət evinin arxasında pilot layihə kimi velosiped yolunun salınması nəzərdə tutulur. Yolun 100 metrlik hissəsi artıq hazırdır. İndi velosiped yolunun örtüyü ilə bağlı təcrübələr aparılır. Bu yolun salınmasında, əsasən, yerli materiallardan istifadə edilir. Bakı şəhərində, ümumilikdə, 18,5 kilometrlik, ilk mərhələdə isə 7,5 kilometrlik velosiped yolunun salınması nəzərdə tutulur.

Diqqətə çatdırılıb ki, şəhərdə parklanma ilə əlaqədar ilkin mərhələdə 600-dək yer müəyyənləşdirilib. İndi bu istiqamətdə infrastruktur işləri görülür.

Dövlətimizin başçısı və birinci xanım platformalarda və gözləmə zallarında yaradılan şəraitlə maraqlanıblar.

Prezident İlham Əliyev burada yaradılmış şəraiti yüksək qiymətləndirib.

Sonra dövlətimizin başçısı və birinci xanım Türkiyənin BMC şirkətinin istehsalı olan avtobusa baxıblar.

Prezident İlham Əliyev əlavə müasir avtobusların alınması ilə bağlı tapşırıqlarını verib.




## “Debütdə buraxılmış səhvə aid 1000 oyun” kitabının təqdimatı keçirilmişdir



***Sentyabrın 25-də Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə “Debütdə buraxılmış səhvlərə aid 1000 oyun” kitabının təqdimatı keçirilmişdir.***

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov çıxış edərək demişdir ki, bu gün Azərbaycanda şahmatın inkişafı diqqət mərkəzindədir. Ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında şahmatın kütləvi hal alması üçün aparılan siyasət uğurla davam etdirilir. Muxtar respublikamızın bütün şəhər və rayonlarında şahmat məktəbləri tikilərək istifadəyə verilib. Hazırda Şahmat Federasiyasının məşqçi-müəllimləri uşaqlara idmanın bu növünün sirlərini öyrədirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində orta məktəblərdə tədris olunan şahmat



dərslərinin sayı artırılıb, müəllimlər hərtərəfli qayğı ilə əhatə olunub.

Federasiya sədri vurğulamışdır ki, 2018-ci il dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr”lə bağlı keçirilən müşavirədə Ali Məclis Sədrinin idmanın inkişafı və federasiyaların fəaliyyəti ilə bağlı verdiyi tapşırıqlar və qarşıya qoyduğu vəzifələrin icrası Şahmat Federasiyasının təfindən diqqətdə saxlanılır, şahmatın uşaq və gənclər arasında kütləvi hal alması istiqamətində ardıcıl işlər görülür. Bu gün federasiyanın sədr müavini Emin Hacıyevin hazırladığı “Debütdə buraxılmış səhvlərə aid 1000 oyun” kitabının təqdimatının keçirilməsi və imtahandan keçmiş şahmat müəllimlərinə sertifikatların verilməsi bunu bir daha təsdiq edir.

Seymur Talıbov kitab və sertifikatların təqdimatı, eləcə də yeni dərs ili münasibətilə bütün müəllimləri təbrik etmişdir.

Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov çıxışında vurğulamışdır ki, ümumtəhsil məktəblərində şahmatın tədrisi üçün siniflər ayrılmış, ümumilikdə, ümumtəhsil məktəblərinə 490 ədəd ayaqlı, 500 ədəd asma və 3910 stolüstü şahmat dəsti verilmişdir. Sentyabrın 6-da şahmat müəllimlərinin növbəti sertifikasiya imtahanı keçirilmiş, 86 müəllim uğurlu nəticə toplamışdır. Şahmatın tədrisi səviyyəsinin yüksəldilməsi təkcə müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması ilə məhdudlaşmır. Eyni zamanda ümumtəhsil məktəblərinin şahmat fənninə dair dərslik, dərs vəsaiti və digər tədris-metodik ədəbiyyatlarla təmin olunması da diqqətdə saxlanılır. Şahmat Federasiyası tərəfindən fevral ayında şahmatın əsaslarının şagirdlərə öyrədilməsində müəllimlərə yaxın köməkçi olan “Pillə-pillə” kitabı nəşr olunaraq ümumtəhsil məktəblərinə verilmişdir. Bu gün isə şahmata olan maraq və artan tələbat nəzərə alınaraq Şahmat Federasiyası tərəfindən “Debütdə buraxılmış səhvlərə aid 1000 oyun” kitabı təqdim edilib.

Tədbirdə Naxçıvan Şəhər Şahmat Mərkəzinin direktoru Emin Hacıyev, Kəngərli Rayon Təhsil Şöbəsinin metodkabinetinin müdiri Həsən Tağıyev, Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbin şahmat müəllimi Fəridə Şükürova çıxış edərək yeni kitabın şahmatın tədrisi keyfiyyətinin yüksəldilməsinə əsaslı təsir göstərəcəyini bildirmiş, şahmatçılar üçün yaradılan hərtərəfli şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq etmişlər.






Tədbirin sonunda sertifikasiya imtahanında uğurlu nəticə qazanan ümumtəhsil məktəblərinin 86 şahmat müəlliminə “Debütdə buraxılmış səhvlərə aid 1000 oyun” kitabı və sertifikatlar təqdim olunmuşdur.

**“Şərq qapısı”**

## Şərurda əhalinin növbəti siyahıya alınmasına ciddi hazırlıq görülür

***Əhalinin siyahıya alınması mühüm dövlət tədbiridir və dövlətin vahid statistik metodologiyası əsasında həyata keçirilir. Həmin tədbir cəmiyyətdəki vəziyyət, onun iqtisadiyyatı, sosial sahəsi, mənəvi dəyərləri və sair haqqında mühakimə yürütməyə, müəyyən problemləri daha effektiv şəkildə həll etməyə imkan verir. Bu səbəbdən müntəzəm şəkildə aparılan əhali siyahıyaalmaları demokratik cəmiyyətin ən mühüm əlamətlərindən biri hesab olunur.***

Ölkəmizdə keçiriləcək əhalinin növbəti siyahıya alınması ilə bağlı Şərur rayonunda görülən işlər barədə rayon Statistika İdarəsinin rəisi Ramiz Rəsulovla həmsöhbət olduq. O bildirdi ki, indiki və gələcək nəsillər üçün dayanıqlı inkişaf proqramlarının işlənib hazırlanması, insanların rifah halının yaxşılaşdırılması məqsədilə hazırkı siyahıyaalmada aktiv iştirak əhəmiyyətlidir və biz də öz işimizi bu istiqamətdə quraraq bir sıra təşkilati tədbirləri yekunlaşdırmışıq.

Siyahıyaalmanın mühüm əhəmiyyət daşıdığını qeyd edən müsahibim bildirdi ki, BMT-nin tövsiyələrinə uyğun olaraq bu, ölkəmizdə hər 10 ildən bir keçirilir. Dövlət müstəqilliyi qazanıldıqdan sonra ölkəmizdə ilk dəfə 1999-cu, ikinci dəfə isə 2009-cu ildə əhalinin siyahıya alınması reallaşdırılıb. Növbəti siyahıyaalma Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıya alınmasının keçirilməsi haqqında” 2016-cı il sentyabrın 7-də imzaladığı Fərmana əsasən cari il oktyabr ayının 1-dən 10-dək keçiriləcəkdir.

Naxçıvan Muxtar Respublikasında əhalinin siyahıya alınmasını təşkil etmək məqsədilə 2016-cı il 26 dekabr tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən “Naxçıvan Muxtar Respublikasında əhalinin siyahıya alınmasına yardım komissiyasının yaradılması haqqında” Sərəncam imzalayıb və komissiyanın qərarına əsasən iş planı təsdiq edilib.

Ramiz Rəsulovun sözlərinə görə, rayonda 1 şəhər, 8 kənd olmaqla, 9 siyahıyaalma, 80 təlimatçı-nəzarətçi, 395 sayıcı məntəqəsi yaradılıb. İş planına əsasən Şərur Rayon İcra Hakimiyyətində əhalinin siyahıya alınmasına yardım komissiyası təşkil edilib, rayonun yaşayış məntəqələri üzrə sxematik plan və xəritələri hazırlanıb, evlərin, mənzillərin sayı və digər göstəricilər haqqında məlumatlar dəqiqləşdirilib. Həmin məlumatlar əsasında rayon üzrə təşkilati plan tərtib olunub. Plana əsasən şəhər üzrə siyahıyaalma məntəqəsinin, şəhər üzrə təlimatçı və sayıcı məntəqələrinin, kənd yerlərində siyahıyaalma məntəqələrinin təlimatçı və sayıcı məntəqələri üzrə tərkibləri müəyyənləşdirilib, siyahıyaalmanın rayonlaşdırılması da başa çatdırılıb. Yaşayış məntəqəsində yerləşən mehmanxananın, yataqxananın, xəstəxanaların və əhalinin müvəqqəti toplaşdığı yerlərin sayı və başqa göstəriciləri hər bir inzibati ərazi vahidi üzrə müəyyənləşdirilib.

İdarə rəisi onu da bildirdi ki, bu prosesdə iştirak edəcək siyahıyaalma məntəqəsi müdirləri və müavinlər, eləcə də təlimatçı-nəzarətçilərlə görüşlərin keçirilməsi diqqət mərkəzində saxlanılır. Onların funksiyaları ilə bağlı söhbətlər aparılır. Bu yaxınlarda siyahıyaalma məntəqə müdirləri və müavinləri üçün təşkil olunan tədbirdə bu mühüm kampaniya ilə bağlı müxtəlif mövzularda söhbətlər aparılıb. Belə tədbirlər əhalinin siyahıya alınması başlananadək davam etdiriləcək. Bu isə rayonda siyahıyaalınmanın vaxtında və mütəşəkkil keçirilməsinə imkan verəcək.

**✍ Muxtar MƏMMƏDOV**

# Azadkənddə yeni su təchizatı sisteminin qurulması layihəsinin icrası başa çatıb





Sentyabrın 25-də “Ordubad rayonu, Azadkənddə su təchizatı sisteminin qurulması” layihəsinin icrasının başa çatması münasibətilə keçirilən tədbirdə Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov çıxış edib. Bildirib ki, son illərdə ölkə rəhbərinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində rayonda hərtərəfli inkişaf təmin edilib. Ordubad şəhəri və kəndlər abadlaşıb, müasir obyektlər, inzibati və yaşayış binaları tikilərək istifadəyə verilib, yol, elektrik, qaz, rabitə, su və digər infrastruktur sahələri yenilənib, rahat yaşayış üçün hər cür şərait yaradılıb. İş yerləri açılıb, məşğulluq təmin edilib, əhalinin rifah halı yüksəldilib. Hazırda Ordubad şəhərində yeni içməli su və kanalizasiya sistemləri qurulur, yeni obyektlər inşa olunur, abadlıq işləri aparılır.

Elşad Məmmədov vurğulayıb ki, cari ilin fevral ayının 21-də Yaponiya hökumətinin dəstəyi ilə, Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Teruyuki Katorinin iştirakı ilə Ordubad rayonunun Azadkənd kəndində su təchizatı sisteminin inşası layihəsi üzrə qrant müqaviləsinin imzalanma mərasimi keçirilib. Ötən 7 ay müddətində layihədə nəzərdə tutulmuş işlər başa çatdırılıb, içməli suyun kəndə verilişi təmin edilib.

Qeyd olunub ki, kənddə 208 ev, 1302 nəfər əhali var. Azadkənddə 504 şagird yerlik məktəb, kitabxana, mədəniyyət evi, tibb məntəqəsi, icra nümayəndəliyi, bələdiyyə, ATS və baytarlıq məntəqəsi fəaliyyət göstərir. Bu günədək kənddə içməli su təchizatı artezian quyusu vasitəsilə həyata keçirilib.

“Bu gün Azadkənddə su təchizatı sisteminin inşası qrant layihəsi çərçivəsində başa çatdırılıb. Belə ki, çəkilmiş su xəttinin uzunluğu kaptajla birlikdə 4400 metrdir. Kaptaj Sabirkəndlə Qoşadizə kəndləri ərazisində Gilançay çayı üzərindədir. Su Azadkəndin girişindəki 400 tonluq gölə vurularaq oradan kəndə paylanır. Kəndin ərazisində 9 supaylayıcı kranlar quraşdırılıb”, – deyən Elşad Məmmədov əməkdaşlığa mühüm əhəmiyyət verildiyini bildirib.

Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Teruyuki Katori çıxış edərək layihənin icrası nəticəsində Azadkəndin sakinlərinin yüksəkkeyfiyyətli və bol içməli su ilə təmin olunacağını vurğulayıb.

Layihəni həyata keçirən “Konstitusiya” Araşdırmalar Fondunun rəhbəri Əliməmməd Nuriyev çıxışında ölkəmizdə, o cümlədən muxtar respublikada həyata keçirilən infrastruktur layihələrinin əhəmiyyəti barədə danışıb. Qeyd edib ki, Azadkənddə su təchizatı sisteminin inşası layihəsi ölkəmizdə həyata keçirilən genişmiqyaslı tədbirlərin davamıdır.

Sonra Azadkənddə yeni su təchizatı sistemi istifadəyə verilib.

Qeyd edək ki, səfir səfər çərçivəsində Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yerləşdiyi “Qeysəriyyə” tarixi binasını da ziyarət edib. Buradakı eksponatlar barədə qonağa məlumat verilib. Bildirilib ki, muzey XII əsr abidəsi olan “Qeysəriyyə” binasında yerləşir. Keçmişdə şahlara məxsus daş-qaş satılması məqsədilə tikilmiş örtülü Şərq bazarına “Qeysəriyyə” deyilirdi. “Qeysəriyyə” dünyadakı nadir abidələrdən biridir. Belə tikililərə dünyanın 3 yerində – Səmərqənd, Təbriz və Ordubad şəhərlərində rast gəlinir.



Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Teruyuki Katori “Şərq qapısı” qəzetinə müsahibəsində layihənin əhəmiyyəti və səfər təəssüratları barədə danışıb. O deyib ki, Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra Yaponiya ilə əlaqələr genişlənib. Bu əlaqələrin nəticəsində Azərbaycanın bir çox bölgələrində Yaponiya hökuməti tərəfindən kiçik infrastruktur layihələri həyata keçirilir. Növbəti belə layihələrdən biri də Ordubad rayonunun Azadkənd yaşayış məntəqəsində həyata keçirilən su təchizatı layihəsidir.

“Mən bu ilin fevral ayında Naxçıvana səfər etmişdim. Muxtar respublika təbiəti qışda da, payızda da gözəldir, havası çox təmizdir”, – deyən Teruyuki Katori qeyd edib ki, Yaponiya hökumətinin “Ot kökləri və insan təhlükəsizliyi” qrant yardımı proqramı çərçivəsində reallaşdırılan layihə iki ölkənin əlaqələrinin qurulması tarixindən bu günədək davam etdirilir. Hər il Azərbaycanda 10-12 layihə həyata keçirilir. Azərbaycanla Yaponiya arasında əlaqələrin inkişafı kontekstində bu layihələr davamlı olaraq reallaşdırılacaq. “Ordubad rayonu, Azadkənddə su təchizatı sisteminin qurulması” da növbəti belə layihələrdəndir. O vurğulayıb ki, gələcəkdə də bu və digər məsələlərlə bağlı əməkdaşlığımız davam etdiriləcəkdir.

✍ **Rauf KƏNGƏRLİ**

*Muxtar respublikada daşınmaz əmlakın qeydiyyatı və torpaqların elektron uçotunun aparılması avqust ayında da Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən diqqətdə saxlanılmışdır.*

## Ötən ay 480 daşınmaz əmlak obyekti dövlət qeydiyyatına alınıb

Ötən ay 20 ailə təsərrüfatına məxsus fərdi yaşayış evi, qeyri-yaşayış obyekti, həyətyanı təsərrüfat binaları və təsərrüfat fəaliyyəti ilə əlaqədar icarəyə götürülmüş torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınmışdır. Şərur, Şahbuz, Kəngərli və Sədərək rayonlarında ailə təsərrüfatçıları ilə görüşlər keçirilmiş, maarifləndirmə işi aparılmışdır.

Şahbuz rayonunda 1083 daşınmaz əmlak obyekti plana alınmışdır. Şahbuz rayonunun Badamlı, Türkeş və Şada bələdiyyələrinin sərhəd xəritələrinə dair müvafiq yerquruluşu sənədləri elektron variantda hazırlanmışdır. Babək rayonunun Zeynəddin kəndində torpaqlardan səmərəli istifadə və onların mühafizəsinə dair monitorinqlər və aşkar olunmuş torpaqlardan qanunsuz istifadə faktlarının aradan qaldırılması istiqamətində işlər davam etdirilmişdir.

Avqust ayında 480 daşınmaz əmlak obyekti dövlət qeydiyyatına alınmış, 372 texniki sənəd hazırlanmış, yeni yaranmış 63 daşınmaz əmlak obyektinə ünvan verilmişdir. Naxçıvan şəhəri üzrə 4 küçədə ünvan lövhələri və giriş nömrə nişanlarının quraşdırılması məqsədilə aparılan dəqiqləşdirmə işləri başa çatdırılmışdır. 67 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır. Komitənin səyyar xidmət qrupu tərəfindən muxtar respublika üzrə 8 yaşayış məntəqəsində 60 vətəndaşın müraciətinə baxılmışdır.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

***Muxtar respublikamızın zəngin turizm ehtiyatlarının istifadəsi onlar əsasında turizm marşrutlarının yaradılması ilə bağlıdır. Bu marşrutlara turistlərin cəlb olunması üçün onların tərtibi, əsaslandırılması və turların təşkili turizmdən arzu etdiyimiz nəticələrə çatmağa imkan verir. Bu nəticələr isə həm turizmdən gözlədiyimiz gəlirlər, həm də xalqımızın dərin milli qonaqpərvərliyinin tanıdılmasıdır. Belə marşrutlardan biri də hazırda muxtar respublikamıza səyahət edən yerli və əcnəbi turistlərdə böyük maraq doğuran Naxçıvan-Badamlı turizm marşrutudur.***

*Turizm marşrutları*

# Naxçıvan-Badamlı turizm marşrutu



Badamlı deyəndə Azərbaycanın məşhur mineral suyu yada düşür. XX əsrin ortalarından başlayaraq bu günə qədər süfrələrimizin bəzəyi olan məşhur “Badamlı mineral suyu” və dahi sənətçi Rəşid Behbudovun ürəkləri fəth etmiş “Badamlı” mahnısı təkcə Şahbuzun deyil, bütün ölkəmizin şöhrətini dünyaya yayıb. Bu gün də Naxçıvana səyahət edən turistlərin dağlar diyarı Şahbuza yolu düşdükdə onun Batabatı, Ağbulağı ilə bərabər, Badamlısına da böyük maraq yaranır. Şübhəsiz, hələ onillər bundan əvvəl bir su brendi kimi Naxçıvanın adını bütün dünyaya tanıdan Badamlının indiki dövrdə turizm destinasiyası kimi də seçilməsi üçün burada artıq hər bir şərait yaradılıb. Müasir turizm menecmentində əsas vəzifə kimi qarşıya qoyulan cazibədarlıq, bitkinlik və komfortluluq elementlərinin hamısı bu istiqamətdə də vardır.

Naxçıvan-Badamlı turizm marşrutu Naxçıvan şəhərindən, təxminən, 25 kilometr, Naxçıvan-Şahbuz avtomobil yolundan 7 kilometr məsafədə yerləşir. Marşrut üzrə hərəkət edən turistlər ilk olaraq Şahbuzun girəcəyində ilin istənilən fəslində özünəməxsus gözəlliyi olan Heydər Əliyev Su Anbarının möhtəşəm görüntüsünə heyranlıqla yola davam edirlər. Su anbarı və onun arxa fonundakı Şahbuz dağları Naxçıvana ilk dəfə gələn turistlər üçün, xüsusilə unudulmaz təəssüratlar formalaşdırır.

Ümumilikdə, Şahbuz turizm ehtiyatları sarıdan çox zəngindir. Hələ sovet dönəmindən Naxçıvanın turizm-istirahət məkanı kimi tanınmış Batabat yaylağı bu rayonun ecazkar təbii gözəlliklərinin bir etiketi kimi şöhrət qazanmış, haqqında nəğmələr qoşulmuşdu. Batabat müqəddəs Əshabi-Kəhf ziyarətgahı və Möminə xatın türbəsi ilə birlikdə Naxçıvana gəlmiş qonaqların ən çox görmək istədikləri məkanlardan biri idi. O dövrdə Badamlı istiqamətində turistlərin rahat hərəkəti və asudə vaxt keçirmələri üçün zəruri şərait olmasa da, müasir dövrdə burada yaradılmış modern sosial infrastruktur və Badamlı qəsəbəsində mineral su istehsalı müəssisəsinin yaradılması bu imkanları daha da genişləndirib. Artıq Badamlıya gələn qonaqlar üçün kənd, landşaft, qastronomi və fotoovçuluq turizmi həvəskarları üçün yaxşı şərait yaradılıb.

Turizm baxımından Badamlının özünəməxsus xüsusiyyətləri vardır. İlk olaraq turistlər arasında mineral bulaqlar laboratoriyası kimi də tanınan Naxçıvanda “Badamlı” suyunun yerində dadına baxılması kimi maraqlı təkliflər edilə bilər. Belə xidmət müasir dövrdə qastronomi və müalicə turizmi həvəskarları üçün populyardır. Bununla yanaşı, Badamlıya gələn turistlər üçün bu kənddəki yaşıllıqlar içində istirahət edib, mənalı vaxt keçirməyin də ayrıca ləzzəti vardır. Əgər qonaqlar Badamlıya birgünlük gəliblərsə, bütün gün ərzində Yemişandərə, Ordu bulağı, Fərəməz bulağında keçirilən gün yol yorğunluğunu unutdurmağa bəs edər. Badamlıdakı Şirandaş şəlaləsində bol fotoşəkillər çəkən turistlər burada keçirdikləri günün təəssüratını doyunca yaşayacaqlar.

Badamlılılar həm işgüzar, həm də qonaqpərvər insanlardır. Burada qonaqlar üçün zəngin süfrə açıb, bəh-bəhlə “xoşgəldin” etmək kimi müasir turizmə xarakterik olan tələblər bir növ milli-mədəni dəyər kimi yaşadılmaqdadır. Şübhəsiz, Badamlıya səfər edən hər qonağa “Badamlı” suyu qədər badam daddırılması da eksklüziv xidmət kimi yaddaqalıcıdır. Xüsusən payız fəslində, badamın tam yetişdiyi bu günlərdə Badamlıda yerli badamın ləzzəti ilə tanış olandan sonra kimsə çətin ki marketlərdəki idxal badama meyil eləsin. Hər həyətdə azı beş-on badam ağacının olduğu Badamlıda bəzi ailə təsərrüfatçılarının barlı mövsümlərdə az qala 1 tona yaxın badam məhsulu olur. Burada badamı çox sevir, çay süfrəsindəki əziz qonaqlar üçün badam ləpəsinin ən irisini seçir, boğça dolusu badam payları tutulur. İlin isti aylarında iri badam ağacının kölgəsində açılmış süfrədə yovşan ətirli Badamlı balıyla qaymaq dadmağın isə başqa bir ləzzəti vardır.

Aktiv istirahəti seçən turistlər Şahbuzun bu gözəl kəndinə gəldikdə bağlara necə qulluq edilməsi, kənd təsərrüfatı işləri ilə yaxından tanış olmaq fürsəti qazanırlar. Piyada dağ yürüşləri, panoramik mənzərələrlə tanışlıq baxımından da Badamlıda cazibədar yerlər çoxdur. Coğrafi baxımdan sanki, Şahbuzun ekvator xəttində yerləşən Badamlı həm dağ, həm də aran kəndidir. Bu baxımdan Badamlıda kənd turizmi üçün də yaxşı imkanlar vardır. Kənddə və Badamlı qəsəbəsindəki çox sayda hosteltipli evlər növbəti turizm mövsümlərində Badamlıya gələcək turistləri yerləşdirmək üçün əlverişlidir. Xalqımızın milli dəyərləri baxımından Badamlıda yaşadılan xalq adətləri, milli yeməklərimiz və nənələrdən qalma əl işləri ilə tanışlığın qeyri-adilik axtaran hər bir qonaq üçün çox cazibədarlığını da düşünmək olar.

Turizm marşrutları baxımından Şahbuzun hər bir guşəsinin özünəməxsus bir potensialı vardır. Əgər səyahət üçün Naxçıvanı seçmiş turistlərin burada gecələmə sayını artırıb daha çox gəlir əldə etmək istəyiriksə, yeni turizm marşrutları əsasında orijinal tur layihələrin hazırlanması bizi gözləyir. Bu dəfə yolu Badamlı istiqamətinə düşən turistlər isə belə bənzərsizliklərin nə qədər çox olduğunu öz gözləri ilə görəcəklər.

✍ **Əli CABBAROV**

## Yeniləşən kəndlərimiz

# Muğanlı müasir yaşayış məntəqəsinə çevrilir

*Ruzi-bərəkət fəsli olan qızılı payız yenə yurdumuza qədəm qoyub. Havalar soyumaqda, təbiət yaşıl donunu dəyişməkdədir. Qədim diyarımızda bütün fəsillər gözəldir. Yayın sonu, payızın əvvəlləri bəzən bir-birinə bənzəsə də, bu dövrün özünəməxsus özəllikləri var. Belə günlərin birində yolumuz Şərur rayonunun Muğanlı kəndinədir.*

Yolboyu müasirliyə qovuşmuş kəndlər bir-birini əvəz edir. Gördüyümüz mənzərələr insan qəlbində isti duyğular yaradır. Bu gün muxtar diyarımızın istənilən guşəsinə üz tutsaq, belə təəssüratları yaşaya, sevinc hissləri keçirə bilərik. Ona görə ki, ötən dövr ərzində bu yaşayış məntəqələrində həyata keçirilən quruculuq işləri, yaşıllaşdırma tədbirləri insanların yaşam tərzini kökündən dəyişib, evlərə firavanlıq gətirib. Hazırda Muğanlı kəndində son tamamlama işləri də başa çatdırılmış kompleks quruculuq tədbirləri bu yaşayış məntəqəsini də müasirliyə qovuşdurmaqdadır.

Həmin tədbirlər çərçivəsində Muğanlı kəndinə gedən yola yeni asfalt örtük salınıb. Təbii ki, bu quruculuq tədbiri həm sürücülər, həm də kənd adamları və buraya gələn qonaqlar tərəfindən dövlət qayğısı kimi dəyərləndirilib, kəndə gözəllik bəxş edib. Yadıma atalarımızın bir sözü düşür: "Abad yurd yolundan tanınır".

Kəndə daxil oluram. Budur, yeni obyektlərdən birinin – kənd mərkəzinin qarşısındayıq. Kəndə müasir qəsəbə görkəmi gətirmiş bu və digər obyektlər muxtar respublikada bərqərar olmuş sabitliyin, inkişaf və tərəqqinin nəticəsidir.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Bəhruz Mirzəyev deyir:

– Muxtar respublika rəhbərinə minnətdarıq. Muğanlı ən xoş günlərinə qovuşmaqdadır. Son illər muxtar respublikamızda payız fəsli üçün daha çox xarakterik olan bir ənənə formalaşmaqdadır. Bu, kompleks quruculuq tədbirləri çərçivəsində inşası başa çatdırılmış obyektlərin açılış mərasimləridir. Hər il bu sevinc diyarımızın on-on beş kəndində yaşanır. Biz də bu sevinci yaşamaqdayıq.

Kənd sakini İkram Mirzəyev də söhbətə qoşulur:

– Bütün bunlar kənd sakinlərinə layiq olduğu səviyyədə yaşamaq üçün həyata keçirilən tədbirlər olmaqla muxtar respublikanın gündən-günə artan iqtisadi qüdrətinin göstəricisidir. Bu gün Muğanlı sakinlərinin sevincinin həddi-hüdudu yoxdur. Bizə belə şəraiti yaradanlara minnətdarlığımızı bildiririk.

Bəhruz Mirzəyevlə kənd mərkəzinə daxil oluruq. İcra nümayəndəsi bildirir ki, 1205 sakini, 313 təsərrüfatı olan Muğanlı Şərur rayonunun səfalı yaşayış məntəqələrindən biridir. O, kənddə həyata keçirilən kompleks quruculuq tədbirləri barədə həvəslə danışır. Öyrənirik ki, üçmərtəbəli kənd mərkəzində rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, arxiv, mədəniyyət evi üçün otaqlar və iclas zalı olacaq. Rabitə evində poçt bölməsi yaradılacaq, kommunal ödənişlərin qəbulu, dövri mətbuatın, gündəlik danışıq və internet kartlarının satışı təşkil ediləcək. Kəndə fiber-optik xətt çəkilib, bu, sürətli internetdən istifadə imkanları yaradıb. Binanın bir hissəsi səhiyyə məntəqəsi üçündür. Bu yeni ünvanda əhalinin müayinə və müalicəsini təmin etmək üçün müasir tibbi avadanlıqlardan istifadə olunacaq.





Muğanlı kəndində tarixən təhsilin inkişafına ciddi diqqət yetirilməsinin nəticəsidir ki, burada güclü ənənələr yaradılıb. Məktəbin direktoru Salman İmanov deyir ki, yeni məktəb binası həmin ənənələrin yaşadılmasına imkan verəcək, daha böyük uğurlar qazanılmasını təmin edəcək.

Ötən dərs ilində məktəbin 5 məzunu olub. Onların dördü ali məktəb tələbəsi adını qazanıb, ikisi 500-dən yuxarı bal toplayıb.

Gələcək perspektiv nəzərə alınaraq 224 şagird yerlik yeni məktəb binası 2 mərtəbəlidir. Məktəbdə 2 elektron lövhəli sinif, kimya, biologiya, fizika laboratoriyaları, hərbi kabinə, kompüter və müəllimlər otaqları, bufet, idman zalı, kitabxana müəllim və şagirdlərin ixtiyarına veriləcək.

Məktəbin pedaqoji kollektivi qarşısına məqsəd qoyub ki, yeni təhsil ocağında dövlətçiliyimizə, müstəqilliyimizə sadiq olan vətənpərvər vətəndaşlar yetişdirmək üçün müasir təlim üsullarına üstünlük verilsin, məktəbdənkənar və sinifdənxaric məşğələlər səmərəli təşkil edilsin. Məqsəd doğma Azərbaycanımızın, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın ulu keçmişini, ümumilikdə, mədəniyyətimizi, ədəbiyyatımızı, milli-mənəvi dəyərlərimizi bugünkü məktəblilərə aşılamaq, onları doğma yurd yerinə məhəbbət ruhunda formalaşdırmaqdır. Onu da qeyd etmək yerinə düşər ki, məktəb 416-cı Taqanroq diviziyasının komandiri, bu kəndin yetirməsi Mehdi Mahmudovun adını daşıyır.

Muğanlı kəndində istifadəyə hazırlanan yeni xidmət mərkəzində bərbərxana və mağaza fəaliyyət göstərəcək. Ticarət və məişət xidmətlərinin təşkili sakinlərin rahatlığına şərait yaradacaq. Mağazada zəruri ərzaq və sənaye mallarının satışı təmin olunacaq.

Xidmət mərkəzinin qarşısında kənd ziyalısı, uzun illər bu yaşayış məntəqəsindəki təhsil ocağına rəhbərlik etmiş, Azərbaycan Respublikasının Əməkdar müəllimi, hazırda təqaüddə olan İsa Hüseynovla görüşürük. Hələ də gümrah görünən İsa müəllim minnətdarlıq hisslərini dilə gətirir. Deyir ki, qədim diyarımızın bütün bölgələrində görülən bu işlər insanlara böyük qayğı göstərilməsinin ifadəsidir. Dünənki mağazamız hara, məktəbimiz hara, bu gün gördüklərimiz hara? – deyən el ağsaqqalından kənd haqqında bir qədər ətraflı danışmağı xahiş edirik.

– Muğanlı sakinləri öz kəndlərinə bağlı insanlardır. Sovet dövründə kənddə çox az quruculuq tədbiri aparılmışdı. Bu gün ovaxtkı arzularımız həyata keçib. Sağ olsun muxtar respublika rəhbərini. Bu gün kənd adamına nə lazımdırsa, hamısı ilə təmin olunmuşuq. Diyarımıza gələn qonaqlarla tez-tez görüşürəm. Söhbətləşirəm. Sözün həqiqi mənasında, qürur hissi duyuram ki, doğulduğum, boya-başa çatdığım, ömürboyu yaşadığım bu qədim yurd yeri bu gün inkişafının ən yüksək mərhələsindədir. Bilirsinizmi, buna necə nail olunub? Ulu öndərin yoluna ehtiram və sədaqət göstərməklə. Bu gün təkcə naxçıvanlılar deyil, bütün xalqımız görür ki, bu yolun alternativi yoxdur, bu yoldan kənarda inkişaf da yoxdur. El ağsaqqalının qətiyyətlə dediyi sözlər mənə də böyük ruh yüksəkliyi bəxş edir. Yeri gəlmişkən, bu kəndin adının etimologiyası barədə soruşuram. Aldığım cavabı oxuculara da təqdim edirəm: – AMEA-nın müxbir üzvü, mərhum Adil Bağırov "Naxçıvanın oykonimləri" adlı kitabında bununla bağlı yazır ki, "Muğan" sözünün tarixi qədim, məna açımı isə mübahisəlidir. Alim Yaqut-əl Həməvi və Həmdullah Qəzvininin gəldikləri qənaəti diqqətə çatdırır ki, bu coğrafi ad əvvəlcə "Mukan" şəklində olub və əhali "Muğan" kimi tələffüz edib. Adil Bağırov daha bir neçə tədqiqatçı-alimin fikirlərinə öz münasibətini bildirir. B.Budaqov və Q.Qeydullayevin fikirlərini əsas gətirərək yazır ki, bu ad Muğan çölündə yaşamış müxtəlif qədim türk tayfalarının ümumi adıdır. V əsrdə Muğanda böyük türk tayfa birliyi vardı. Ehtimal ki, bu tayfanın əsasını həmin türk tayfaları təşkil etmişdir. Adil Bağırov bu qənaətə gəlir ki, bu gün respublikamızda Muğan, Muğanlı, Muğancıq kimi kənd, yer-yurd adları "mağ" tayfa adı ilə bağlı yaranıb, o cümlədən Şərur rayonundakı Muğanlı, Muğancıq Mehrab, Muğancıq Müslüm və Maxta adları da bu tayfa adını özündə saxlayıb. Muğan adında yaşayış məntəqələrinin Özbəkistan, Tacikistan, Gürcüstan, Qərbi Azərbaycan və Türkiyədə də mövcudluğu bu fikri yürütməyə imkan verir.

2019-cu ilin muxtar respublikada elan olunmuş "Ailə təsərrüfatları ili"nə Muğanlı sakinlərinin münasibətini də öyrənirəm. İcra nümayəndəsinin sözlərinə görə, kənddə müxtəlif təsərrüfat sahələri inkişaf etdirilir. Muğanlıda ailə təsərrüfatçıları çoxdur. Onlardan biri Bəhram Mirzəyevdir. O, mexanizatordur. Bütün kənd təsərrüfatı texnikaları var. Bu texnikalarla həmkəndlilərinə kömək etməklə yanaşı, əkinçilik və bağçılıqla da məşğuldur. Cari ildə 30 hektar sahədə qarğıdalı, 10 hektarda yonca əkib, meyvəçiliyi inkişaf etdirmək üçün 0,5 hektar sahədə bağ salıb. 5 hektar əkin sahəsindən 34 sentner məhsuldarlıqla taxıl tədarük edib. Qazanılan uğurların təməlində dövlət qayğısının dayandığını deyir və minnətdarlığını bildirir.

Muğanlıdan ayrılarkən son illər muxtar respublikada şəhər və kənd arasında olan fərqlərin aradan qaldırılması istiqamətində görülən işləri göz önünə gətirdim. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sözlərini xatırladım: ***"Naxçıvan Muxtar Respublikası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan sabitlik və quruculuq yolundadır. Azərbaycan və ona bağlı Naxçıvan Muxtar Respublikası ona görə inkişaf edir ki, ümummilli liderimizin yolu ilə gedir".***

**Muxtar MƏMMƏDOV**

---

*Dağlar qoynunda yerləşən Şurud kəndinin təsərrüfat adamlarının əsas məşğuliyyətlərindən biri də arıçılıqdır. Əlverişli coğrafi mövqe, mülayim iqlim, zəngin bitki aləmi burada arıçılığın inkişaf etdirilməsi üçün lazımi zəmin yaradır. Zəngin floraya malik Şurud kəndinə, xüsusilə bu yurd yerinə yaxın olan, "Yarpaqlı yaylağı" və "Məhəmməd düzü" adlanan ərazilərdə çoxlu şirəli bitki növü olduğu üçün bu yerlərin balı öz keyfiyyətinə və müalicəvi əhəmiyyətinə görə diqqəti cəlb edir.*

# Şurudun balı – can dərmanı

Arıçılıq Culfa rayonunun Şurud kəndində ta qədim zamanlardan əhalinin təcrübə empirik biliyi sayəsində inkişaf etdirilərək əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə çatdırılıb, məişətdə və əhalinin həyat tərzinin yaxşılaşdırılmasında əhəmiyyətli rol oynayıb. Şurudda, demək olar ki, hər bir təsərrüfat adamı arıçılıqla məşğul olur. Bu gün Şurud-Gal kəndində arı ailələrinin sayı 1200-ə çatıb. Qeyd etmək lazımdır ki, Şurud dəniz səviyyəsindən yüksəkdə olduğundan sərt iqlim şəraiti ilə səciyyələnir. Burada qış uzun sürür, bu müddətdə çoxlu qar yağır. Dağlıq ərazi olduğu üçün havanın temperaturu gündə bir neçə dəfə dəyişir, yazda günəşli gündüzdən sonra soyuq gecə gəlir. Soyuğa və xəstəliyə dözümlülüyü, habelə məhsuldarlığı ilə diqqəti cəlb edən Şurud arısının rəngarəng çiçəklərdən topladığı bal min bir dərdin dərmanı, can məlhəmidir. Yaxın kəndlərin təsərrüfat adamları da öz arılarını isti yay günlərində bu yerlərə gətirirlər. Şurud arıçılarının qazandıqları ənənəvi təcrübə arıçılıq təsərrüfatının inkişafında mühüm rol oynayıb.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" Şurud kəndində arıçılıqla məşğul olan təsərrüfat adamları tərəfindən minnətdarlıqla qarşılanıb. Ərzaq təhlükəsizliyinin təmin olunmasında və tibb sahəsində xüsusi rolu və çəkisi olan arıçılıq bu yaşayış məntəqəsində də uğurla inkişaf etdirilir. 2017-ci ilin noyabr ayından başlayaraq hər il "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən "Arıçılıq məhsulları – bal festivalı" arıçılar arasında "Ən yaxşı arıçılıq məhsulları – bal" nominasiyası üzrə keçirilən müsabiqədə Şurud balı da yüksək qiymətləndirilib.

Ata-babasının arıçılıq peşəsini uğurla davam etdirən Şurud kənd sakini Arif Nuriyev bildirdi ki, yay aylarında arı ailələrini Yarpaqlıya aparırıq. Buranın təbiəti, əlverişli iqlimi, zəngin bitki örtüyü arıların keyfiyyətli bal toplamasına münbit şərait yaradır. Arıçılığın inkişafına belə dövlət qayğısı bizi bu sahə ilə daha səylə məşğul olmağa sövq edir. Arılar arasında yayıla biləcək xəstəliklərin qarşısının alınması üçün biz təsərrüfat adamlarına vaxtlı-vaxtında dərmanlar və preparatlar verilir.Təsərrüfat adamları ilə maarifləndirici söhbətlər aparılır.

Şurud kənd sakini Ələmqulu Quliyev söhbət zamanı bildirdi ki, uzun illərdir, bu sahə ilə məşğul olduğu üçün arıçılığın bütün sirlərinə bələddir. O dedi ki, Şurud dağlıq yer olduğu üçün bu yurd yerinin balı keyfiyyətcə başqa yerlərin balından fərqlənir. Qeyd edim ki, dağ çiçəkləri arıların bal toplaması üçün gözəl məskən və mənbə sayılır. Alıcılar da dağ balının dadına, ətrinə və keyfiyyətinə hər vaxt yüksək qiymət verirlər. Balın dadı və faydalılığı başlıca olaraq arının hansı ərazidə saxlanmasından, hansı çiçəkdən şirə çəkməsindən asılıdır. Ata-babalarımız söyləyiblər ki, arı saxlanan evdə ruzi-bərəkət bol olar. Onun məhsulundan daddıqca canın dərd-bəla görməz. "Bal min bir dərdin dərmanıdır". El arasında onu da deyirlər ki, arı müqəddəsdir, o, haram götürmür. Arı saxlamaq böyük zəhmət tələb etsə də, doğma yurdumuzun əsrarəngiz təbiəti işimizi xeyli asanlaşdırır. Sevindirici haldır ki, arıçılar üçün dövlətimiz tərəfindən hər cür şərait yaradılıb. Hər il festivalların keçirilməsi həm Şurud balının geniş şəkildə tanıdılması, həm də arıçılar üçün satış imkanı yaradır.



Digər kənd sakini Babək Kalbalıyev də arıçılığa gəlirli sahə kimi baxır, bu sahənin ildən-ilə genişləndirilməsinə diqqət yetirir. Onunla söhbət zamanı vurğuladı ki, kənddə istehsal edilən bal tərkibinin zənginliyinə, qidalılığına, müalicəvi əhəmiyyətinə görə digər kəndlərin balından daha keyfiyyətlidir. Biz çalışırıq ki, göstərilən dövlət qayğısından lazımınca bəhrələnərək daxili bazarın yüksəkkeyfiyyətli arıçılıq məhsulları ilə təmin olunmasına öz töhfəmizi verək. Ona görə də bu yaxınlarda keçiriləcək növbəti festivala ciddi hazırlaşırıq.

Sakinlərdən Hidayət Hümbətov da arıçılığa gəlirli sahə kimi baxır. O qeyd etdi ki, xalq arasında "Bal tutan barmaq yalar" atalar sözü göstərir ki, arıçılıq və bal hər zaman qida məhsulu və gəlirgətirən əvəzsiz nemət hesab edib. Ölkə başçısının sərəncamına əsasən 5 il müddətində arıçılıqla məşğul olan şəxslərə saxladıqları hər arı ailəsinə görə subsidiya müəyyən edilib. Bu da biz təsərrüfat adamlarını arıçılığın inkişaf etdirilməsinə daha da ruhlandırıb. Biz ildən-ilə arı ailələrinin sayını artırmaqla bərabər, keyfiyyətli bal istehsal edilməsinə də ciddi diqqət yetirir, muxtar respublika əhalisinin yüksəkkeyfiyyətli balla təmin olunması üçün var qüvvəmizlə çalışırıq. Necə deyərlər:

*Bağ salıb gül əkməyən,*
*Gülün yerə tökməyən,*
*Arı qəhrin çəkməyən,*
*Balın qədrin nə bilər.*

Göründüyü kimi, dağlar qoynunda məskən salmış Şurudun təsərrüfat adamlarının hər biri min bir dərdin dərmanı sayılan keyfiyyətli bal istehsalına öz töhfəsini vermək üçün zəhmətə qatlaşır, xalqımızın qədim məişətində möhkəm yer tutmuş arıçılığı inkişaf etdirir, arıçılıq məhsulları hesabına öz güzəranlarını yaxşılaşdırırlar.

**Ədalət CƏFƏROĞLU**

*Hər bir xalqın bədii-estetik zövqünün, mədəniyyətinin ilkin göstəricisi onun musiqisidir. Dünyada elə bir xalq yoxdur ki, onun musiqi mədəniyyəti olmasın. Elə buna görə də musiqi xalqlararası mənəvi körpü rolunu da oynayır. Azərbaycan musiqi mədəniyyəti də çoxəsrlik inkişafın məhsulu kimi bu gün dünya xalqları arasında xüsusilə seçilir.*

# Professional sənətin bünövrəsi –
## *Naxçıvan Dövlət Uşaq Filarmoniyası*



Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan diyarı da tarixən mədəniyyətin, incəsənətin, ədəbiyyatın beşiyi olub. Musiqi mədəniyyəti Naxçıvanda daim inkişaf edib, yetirdiyi görkəmli incəsənət adamları, sənətkarları ilə bu günümüzdə də inkişafın zirvəsini yaşayır.

Naxçıvanda musiqinin çiçəklənməsində müstəsna rola malik olan Naxçıvan Dövlət Filarmoniyası da yarım əsrdən artıq bir vaxtda böyük inkişaf yolu keçib. Belə ki, 1959-cu ilin sentyabr ayında yaradılan Naxçıvan Dövlət "Araz" Mahnı və Rəqs Ansamblı bu torpağın istedadlı müğənniləri, rəqqasları öz ətrafında birləşdirir. Ansambl tez-tez ölkəmizin bölgələrində, Orta Asiya, Qafqaz ölkələrində qastrollarda olur, çıxışları ilə tamaşaçıların rəğbətini qazanır. 1984-cü ildə





həmin ansamblın bazası əsasında bugünkü Naxçıvan Dövlət Filarmoniyası yaradılır. Filarmoniyanın tərkibində xalq çalğı alətləri və kamera orkestrləri, bir də mahnı və rəqs ansamblı fəaliyyət göstərməyə başlayır. 2012-ci ildə isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Sərəncamı ilə Estrada Orkestri də yaradılır. Çəkilən zəhmət hesabına muxtar respublikamızda bu gün festivalların, konsertlərin təşkili artıq ənənə halını almış şəhərimizdə səhnədə çox zaman bu il 60 yaşını qeyd edən Naxçıvan Dövlət Filarmoniyası kollektivlərinin çıxışlarını sevə-sevə izləyirik.

Digər tərəfdən musiqi mədəniyyətinin inkişafında istedadlı kadrların yetişdirilməsi ən vacib məsələlərdən biridir. Bu sahəyə qədəm qoyan uşaqların potensial kadr kimi hazırlanması diqqətdə saxlanılır. Çünki bu gün yetişdirilən hər bir istedadlı uşaq sabahın peşəkar musiqiçisinə çevriləcəkdir.

İstedadlı uşaqların üzə çıxarılması və gənc kadrların hazırlanması işinə öz töhfəsini verən, Naxçıvan Dövlət Filarmoniyasının kadr bazasına çevrilən Naxçıvan Dövlət Uşaq Filarmoniyası da belə uşaqların yaradıcılıq potensialından daha səmərəli istifadə edərək onları peşəkar səhnə üçün hazırlayır.

Bu gün 100 nəfərdən çox kollektivə malik filarmoniyanın fəaliyyəti üçün hər bir şərait vardır. Filarmoniya musiqi alətləri, xüsusi geyim dəstləri ilə təmin edilib, kollektivin zəhməti nəticəsində istedad və qabiliyyəti ilə seçilən uşaqlar buraya cəlb ediliblər.

Naxçıvan Dövlət Uşaq Filarmoniyasında hazırda xalq çalğı alətləri orkestri, kamera ansamblları, xanəndəlik, vokal və rəqs qrupları, xor kollektivi fəaliyyət göstərir. Yeniyetmə musiqiçilərlə vokal üzrə Azərbaycan Respublikasının Əməkdar artisti Tural Nəcəfov, rəqs üzrə Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Tamerlan Bağırov, xanəndəlik üzrə Naxçıvan Musiqi Kollecinin müəllimi, xanəndə Əbülfəz Məmmədov, xalq çalğı alətləri üzrə isə gənc tarzən Kənan Feyzullayev məşğul olurlar.

Repertuarı Tofiq Quliyevin "Vals", Müslüm Maqomayevin "Şah İsmayıl" operasından "Müqəddimə" və başqa əsərlərlə zəngin olan xalq çalğı alətləri orkestri yeni əsərlər üzərində işləyir.

Bəstəkar əsərlərinin, muğam və xalq mahnılarımızın ifasına üstünlük verən xalq çalğı alətləri ansamblı isə Rauf Hacıyevin "Azərbaycan", Üzeyir Hacıbəylinin "Ey Vətən", Ramiz Mirişlinin "Doğma diyarım" və "Naxçıvan süitası" kimi bəstəkar əsərlərini, muğam və təsniflərimizi məharətlə ifa edir.

Filarmoniyanın vokal qrupu da daim öz üzərində işləyir. Qrupun solistləri Fuad Məmiyev, Mikayıl Nəsirov Azərbaycan bəstəkarları ilə yanaşı, dünya bəstəkarlarının əsərlərinə də müraciət edərək "Santalucia", "Sole Mi O" kimi əsərləri öz repertuarlarına daxil ediblər.

Elmira Hüseynovanın rəhbərlik etdiyi xor kollektivi isə öz repertuarındakı Qənbər Hüseynlinin "Cücələrim", Tofiq Quliyevin "Bizim bağ", Oqtay Rəcəbovun "Uşaqlar sevinsin həmişə", Nailə Mirməmmədlinin "Salam, üçüncü era" və başqa əsərləri konsert proqramlarında ustalıqla ifa edir.

Filarmoniyanın direktoru Ariz Ağayev deyir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Dövlət Uşaq Filarmoniyasının yaradılması haqqında" 2010-cu il 19 aprel tarixli Sərəncamı istedadlı uşaqların yaradıcılıq potensialından daha səmərəli istifadə olunmasında mühüm addım idi və bu gün öz nəticəsini verməkdədir.

Artıq əminliklə deyə bilərik ki, həmin filarmoniya Naxçıvan Dövlət Filarmoniyası və digər mədəniyyət müəssisələri üçün baza rolunu oynayır. Bizim üçün hər bir şərait yaradılıb. Göstərilən etimadın qarşılığında çalışırıq ki, tapşırılan vəzifələri layiqincə yerinə yetirək. Muxtar respublikamızdakı istedadlı uşaqları aşkara çıxaraq, düzgün istiqamətləndirərək böyük səhnəyə hazırlayaq. Onu da qeyd edim ki, Naxçıvanda istedadlı uşaqlar çoxdur. Həmin uşaqları filarmoniyaya cəlb etmək üçün mütəmadi olaraq orta məktəblərdə, uşaq musiqi məktəblərində olur, maarifləndirici söhbətlər aparır, filarmoniyamız haqqında məlumatlar veririk.

Biz hər zaman repertuarımızın zənginləşməsi üçün səy göstərir, ilk növbədə, milli musiqimizin təbliğinə daha çox önəm veririk. Çünki bu həm mədəni tarixiliyin yaşadılmasında, həm də uşaqların bədii-estetik zövqünün formalaşdırılmasında mühüm rol oynayır.

Müsahibim bildirdi ki, kollektiv muxtar respublikada təşkil edilən mədəni-kütləvi tədbirlərdə də fəal iştirakı ilə seçilir. Naxçıvanın bölgələrində konsert proqramları ilə uğurlu çıxış edir. Məlumat üçün bildirim ki, bu il paytaxt Bakı şəhərində keçirilən "Nəqşicahan sədaları" adlı konsertdə Naxçıvan Dövlət Uşaq Filarmoniyasının xanəndəlik kollektivi də fəal iştirak edib. Xanəndə Əbülfəz Məmmədovun istedadlı yetirmələri Əli Mehrəliyev, Həsən Babazadə, Ələkbər Sadiqov və Təyyar Mədətli uğurlu çıxışları ilə yadda qalıblar. İstedadlı uşaqların solo konsertlərinin təşkil olunması da diqqət mərkəzində saxlanılır. Üzvlərimizdən Rəna Mehrəliyeva və Ataxan Quliyevin Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində təşkil edilən solo konsertləri maraqla qarşılanıb.

– "Bu il muxtar respublikamızın yaradılmasının 95 illiyini qeyd edirik. Filarmoniya bu istiqamətdə hansı tədbirləri həyata keçirir?" – sualımıza Ariz müəllim belə cavab verdi ki, rayon və şəhərlərimizdə bir neçə konsert proqramı ilə çıxışlar etmişik. Bu əlamətdar ilə öz töhfəsini vermək üçün kollektivimiz səylə çalışır. İlin sonuna qədər bu münasibətlə bir çox konsert proqramları da planlaşdırmışıq.

*Filarmoniyanın uğurları bunu deməyə əsas verir ki, kollektiv dövlət qayğısından bəhrələnərək bu gün də öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir və musiqi mədəniyyətimizin inkişafı naminə var qüvvəsini əsirgəməyərək peşəkar kadrların hazırlanmasına çalışır.*

✍ **Pərviz HACILI**

# Eksponatların təqdimatı olub



*Sentyabrın 25-də Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyində yeni eksponatların təqdimatı ilə bağlı tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natavan Qədimova açaraq qeyd edib ki, muxtar respublikanın muzeylərində xalqımızın tarixini, həyat tərzini, adət-ənənələrini özündə əks etdirən 140 mindən çox maddi mədəniyyət nümunəsi mühafizə olunaraq qorunub saxlanılır. Təkcə bu ilin yanvar-avqust ayları ərzində muxtar respublikanın muzeylərini 398 min 713 nəfər tamaşaçı ziyarət edib ki, onlardan 122 min 322-si əcnəbi vətəndaş olub.

Qeyd edilib ki, muxtar respublikada muzey fondlarının zənginləşdirilməsi, onların yeni eksponatlarla təmin olunması daim diqqət mərkəzində saxlanılır. Bu ilin ilk 8 ayı ərzində muzeylərə 1750 ədəd eksponat daxil olub. 2019-cu ilin sentyabr ayınadək, ümumilikdə, 8 eksponatın təqdimatı keçirilib, bu təqdimatlarda xalqımızın tarixini özündə yaşadan maddi mədəniyyət nümunələrini muzeylərə könüllü təqdim edən vətəndaşlar yaxından iştirak ediblər. Bu gün Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyində keçirilən tədbir də görülən işlərin nəticəsi kimi qiymətləndirilməlidir.

"Şahbuz şəhər sakinləri Sərraf Süleymanov, Namiq Orucov, Şəmsəddin Kərimov və Aytən Rüstəmli tərəfindən muzeyə təqdim olunan yeni eksponatlar bu mədəniyyət müəssisəsinin fondunun və ekspozisiyasının daha da zənginləşməsinə imkan verməklə yanaşı, Şahbuz rayonunda muzey işinin səmərəli təşkilinə də töhfə olacaqdır", – deyən nazir muzey əməkdaşları adından təqdimatçılara təşəkkürünü bildirib.

Daha sonra eksponat təqdim edən şəhər sakinləri Şəmsəddin Kərimov, Sərraf Süleymanov, Namiq Orucov, Aytən Rüstəmli və Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Xavər Ələsgərli çıxış ediblər.

Tədbirdə hədiyyə edilən yeni eksponatların təqdimatı olub. Sonda tədbir iştirakçıları muzeyin ekspozisiyası ilə tanış olublar.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Test imtahanları keçirilir

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində işə qəbul ilə əlaqədar vakant vəzifələrin tutulması üçün 1 avqust 2019-cu il tarixdə elan olunmuş müsabiqənin test imtahanları başlayıb.

İmtahanlarda zabit vəzifələrinin tutulması üçün "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq ilk zabit hərbi rütbəsi almış 35 yaşınadək həqiqi hərbi xidmət keçmiş şəxslər, mülki vəzifələrin tutulması üçün 35 yaşınadək ali təhsilli şəxslər müraciət edib.

Müsabiqəyə çıxarılmış 30 vakant vəzifənin tutulması üçün 83 namizəd sənəd təqdim edib. Zabit və müfəttiş vəzifələri üzrə test imtahanında hər bir namizədə, ümumilikdə, 100 test tapşırığı təqdim olunur. Test tapşırıqlarının yerinə yetirilməsi üçün 2 saat 30 dəqiqə vaxt verilir. Hər bir düzgün cavab bir balla qiymətləndirilir. Səhv cavablar düzgün cavablara təsir etmir. Test imtahanlarından 70 və daha çox bal yığan namizədlər keçid balını toplamış hesab edilir.

Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi vəzifəsinin tutulması üçün hər bir namizədə, ümumilikdə, 100 test tapşırığı təqdim edilir. Test tapşırıqlarının 80 faizini (80 bal) düzgün cavablandırmış namizədlər keçid balını toplamış hesab olunur.

Onu da qeyd edək ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində işə qəbul ilk dəfə olaraq mərkəzləşdirilmiş qaydada müsabiqə və şəffaflıq əsasında, elektron proqram təminatı tətbiq olunmaqla test imtahanları vasitəsilə keçirilir.

İmtahanda Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşları müşahidəçi kimi iştirak edirlər.

Test imtahanlarının nəticələri Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet portalında *(www.dqmk.nmr.az)* yerləşdirilir.

İmtahanlar 28 sentyabr 2019-cu il tarixədək davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

# *"Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq"* devizi altında yoldaşlıq görüşləri



*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında voleybol üzrə yoldaşlıq görüşü keçirilib.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Voleybol Federasiyasının birgə təşkil etdikləri görüşdə "Culfa" və "Şahbuz" komandaları üz-üzə gəlib. Görüş culfalı voleybolçuların 3:1 hesablı qələbəsi ilə başa çatıb.

* * *



Həmin deviz altında Ordubad və Culfa Rayon Uşaq-Gənclər İdman Məktəbinin 11-13 yaşlı yeniyetmələrindən ibarət futbol komandaları arasında da yoldaşlıq görüşü yaddaqalan olub.

Görüşün məqsədi muxtar respublikada uşaq futbolunu inkişaf etdirmək, istedadlı uşaqları üzə çıxarmaq və onlar arasında idman əlaqələrini genişləndirməkdən ibarət olub. Uşaq futbolunun müəyyən edilmiş qaydaları əsasında təşkil edilən yoldaşlıq görüşü Ordubad rayon komandasının qələbəsi ilə (4:2) başa çatıb.

Sonda hər iki komandaya və idmançılara təşkilatçıların diplomları təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

*İtmişdir*

Məmmədov Rəşad Kamil oğlunun adına olan AO-1011847 nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 650